Agatha Christie

# KARİB HÖVZƏSİNİN SİRRİ

Tərcüməçi:
Ramil Akifoğlu

QANUN NƏŞRİYYATI

Agatha Christie

# A CARIBBEAN MYSTERY

Aqata Kristinin “Karib hövzəsinin sirri” adlı detektiv romanı məşhur Miss Marpl seriyasının parlaq nümunələrindən biridir. Romanda hadisələr İngiltərədən uzaqda, ekzotik Karib adalarından birində – sakit istirahət məkanında baş verir. Lakin bu sakitlik çox keçmədən müəmmalı qətl hadisəsi ilə pozulur.

Əhvalatlar Miss Marplın Karib dənizi sahilində yerləşən kurort şəhərinə istirahətə gəlməyi ilə başlayır. Burada o, müxtəlif xarakterli insanlarla tanış olur. Hər şey adi və sakit görünür, ta ki bir kişi – keçmiş mayor – qəfildən müəmmalı şəkildə dünyasını dəyişənə qədər. Miss Marpl onun ölümünün təsadüfi olmadığını dərhal anlayır və özünəməxsus müşahidə qabiliyyəti və incə məntiqi ilə hadisələri araşdırmağa başlayır. Kurortdakı zahiri sakitlik arxasında gizlənən sirləri, yalanları və təhlükəni ortaya çıxararaq, yeni qətllərin qarşısını almağa çalışır.

*Vest-Hind adalarına səfərimlə bağlı*
*köhnə dostum Con Krukşenk Roza*
*xoş xatirələrlə*

# MÜNDƏRİCAT

Fəsil 1. Mayor Palqreyv hekayə danışır....................9
Fəsil 2. Miss Marpl müqayisələr aparır ....................22
Fəsil 3. Hoteldə ölüm...............................................33
Fəsil 4. Miss Marpl tibbi ekspertiza üçün
müraciət edir ...........................................................39
Fəsil 5. Miss Marpl qərar verir ................................44
Fəsil 6. Səhər tezdən ................................................51
Fəsil 7. Səhər vaxtı sahildə .......................................56
Fəsil 8. Ester Volterslə söhbət...................................69
Fəsil 9. Miss Preskot və digərləri..............................78
Fəsil 10. Ceymstaundakı qərar.................................88
Fəsil 11. Qolden Palmda bir axşam ..........................92
Fəsil 12. Köhnə günahlar uzun kölgələr salır ...........103
Fəsil 13. Viktoriya Consonun ölümü ........................110
Fəsil 14. İstintaq.......................................................115
Fəsil 15. İstintaq davam edir....................................124
Fəsil 16. Miss Marpl yardım istəyir..........................136
Fəsil 17. Mister Rafiel məsuliyyəti
üzərinə götürür .........................................................151

Fəsil 18. Ruhanilərin xeyir-duası olmadan ............... 169
Fəsil 19. Ayaqqabıların faydaları haqqında............... 181
Fəsil 20. Gecə həyəcanı ........................................... 188
Fəsil 21. Makiyajlı Cekson ....................................... 198
Fəsil 22. Onun həyatındakı kişi ................................ 207
Fəsil 23. Sonuncu gün............................................... 215
Fəsil 24. Nemesis ...................................................... 223
Fəsil 25. Miss Marpl öz təxəyyülündən
istifadə edir............................................................... 231
Epiloq ........................................................................ 239

# Fəsil 1
## *Mayor Palqreyv hekayə danışır*

– Götürək elə Keniya ilə bağlı bütün bu hekayələri, – mayor Palqreyv dedi, – ölkə haqqında heç anlayışı olmayanlar nahaqdan danışırlar, halbuki ömrümün on dörd ilini orada keçirmişəm. Həyatımın ən gözəl illərinin müəyyən qismini...

Yaşlı miss Marpl başını tərpətdi.

Bu, nəzakətcəsinə edilən bir jest idi. Mayor Palqreyv həyatının maraqsız xatirələrinə davam edərkən miss Marpl sakitcə öz düşüncələrinə dalmışdı. Bu növ monoloqlar ona tanış idi. Sadəcə, məkan fərqli idi. Əvvəllər əsas mövzu Hindistan idi. Mayorlar, polkovniklər, general-leytenantlar eyni sözləri işlədirlər: Simla, hamballar, pələnglər və s. Mayor Palqreyv də başqa cür səsləndirirdi: Safari, Kikuyu[1], fillər, Suahili[2]. Amma mahiyyətcə eyni idi. Yadında qalan ən xoş xatirələrini bölüşmək üçün dinləyiciyə ehti-

---

[1] Keniyada etnik qrup.

[2] Əsasən, Tanzaniya, Keniya və Mozambikdə yaşayan suahili xalqının ana dilidir.

yacı olan yaşlı bir kişi. Qamətinin düz, gözlərinin və qulaqlarının iti olduğu vaxtlar. Belə hekayələri danışanların bəziləri yaraşıqlı, bəziləri isə, təəssüf ki, ürküdücü olur; qırmızısifət, dombagöz və kök qurbağaya bənzəyən mayor Palqreyv ikinci kateqoriyaya aid idi.

Miss Marpl hər zaman belə hekayələrə nəzakətlə yanaşırdı. O özünü çox diqqətlə qulaq asırmış kimi göstərir, arabir razılıq əlaməti olaraq başını yellədirdi, özü isə daha xoş düşüncələrə dalaraq bundan həzz almağa çalışırdı. Hal-hazırda isə Karib dənizinin mavi dərinliklərinə dalmışdı.

O, minnətdarlıq hissiylə Reymondun necə də nəzakətli bir addım atdığını düşünürdü. Yaşlı bibisinə bu qədər can yandırmasını tam anlaya bilmirdi. Təmiz vicdanı, yoxsa ailə bağları? Ya da o, həqiqətən də, öz yaşlı bibisini çox sevir.

Düzünə qalsa, əlbəttə ki, onun sevgisinə şübhə etmirdi: o hər zaman bibisinə qayğı ilə yanaşıb. Daim onu zəmanədən geri qalmamağa məcbur edir, ona kitablar göndərirdi, əsasən də, müasir romanlar. Anlamaq çətindir: daha çox qəribə-qəribə hərəkətlər edən və etdiklərindən heç bir zövq almayan xoşagəlməz insanlardan bəhs edən romanlar. Miss Marplın gənclik illərində "seks" sözü işlək deyildi, bilsələr belə, heç kəs bu sözü dilinə gətirmirdi, lakin ona elə gəlirdi ki, əvvəllər seks insanlara daha çox zövq verirdi, nəinki indi. Keçmişdə bu, günah sayılırdı. Buna baxmayaraq, o vaxtlar indikindən daha cəzbedici idi. İndi isə, sadəcə, bir tələbatdır.